**Yasamal rayonunda fəaliyyət göstərən kafedə aşkarlanan nöqsanlara dair məlumat**

**(26 aprel 2024)**

Daxil olan vətəndaş müraciəti əsasında Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən Bakı şəhəri, Yasamal rayonu, Zərdabi küçəsi 90 A ünvanında fəaliyyət göstərən "Xan Çinar" kafesində plandankənar yoxlama keçirilib.

Baxış zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların, sanitariya norma və qaydalarının bir sıra tələblərinin pozulması faktları müəyyən edilib. Belə ki, ictimai iaşə müəssisəsinin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, manqal sahəsinin yol kənarında, açıq hava şəraitində təşkil edildiyi, pəncərələrin qoruyucu tor örtüklə təmin edilmədiyi aşkarlanıb. Eyni zamanda mətbəx sahəsində havalandırma sistemlərinin quraşdırılmadığı, müvafiq təmizlik işlərinin həyata keçirilmədiyi, işçi heyətin ilkin və dövri tibbi müayinələrdən keçmədiyi və xüsusi geyim forması ilə təmin olunmadığı məlum olub.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq müəssisənin rəhbərliyi barəsində inzibati protokol tərtib olunub. İctimai iaşə müəssisəsində işlərin görülməsi, xidmətlərin göstərilməsinin dayandırılması, çalışan işçilərin tibbi müayinədən keçənədək işdən kənarlaşdırılması barəsində məhdudlaşdırıcı tədbirlərin tətbiqinə dair qərarlar qəbul olunub.